# Aldı görək nə dedi



Nizami CƏFƏROV

*III*

Milli ictimai şüur formalaşdıqdan sonra özünü çox müxtəlif sahələrdə təzahür etdirir ki, mövqecə onlardan hansına üstünlük vermək, hətta sadəcə sıralayarkən hansını birinci, ikinci, üçüncü və s. saymaq çox çətindir. Ona görə də milli-ictimai şüurun əsas təzahürlərinin siyahısında birinci və ya sonuncu gəlməsindən asılı olmayaraq, hər biri təxminən eyni sosial, mənəvi və ideoloji enerji daşıyır.

***Şərti də olsa, ədəbiyyatı birinci hesab edək…***

Əslində, xüsusilə Azərbaycan milli ictimai şüuru kontekstində ədəbiyyatın buna tarixi haqqı da az deyil. Və «Dədə Qorqud» eposundan «Koroğlu» eposuna, Nizamidən Füzuliyə, Nəsimidən Xətaiyə, Vaqifdən Səməd Vurğuna, Mirzə Fətəlidən Cəfər Cabbarlıya, Mirzə Cəlildən Anara və Elçinə, Hadidən, Caviddən və Müşfiqdən Bəxtiyar Vahabzadəyə, Nəriman Həsənzadəyə və Zəlimxan Yaquba… özünəməxsus yolla (və ideya-estetik məntiqlə) hərəkət edən Azərbaycan ədəbiyyatı mənsub olduğu xalqın «ürək sözü»nü həmişə inamla, cəsarətlə demişdir.

Təsadüfi deyil ki, Azərbaycan xalqının iradəsi əleyhinə çıxanlar birinci növbədə onun ədəbiyyatını hədəf seçmişlər. Keçən əsrin 30-cu illərindəki repressiyalar, 50-ci illərin əvvəllərində «Dədə Qorqud» eposunun qadağan olunması, «Gülüstan» müəllifinin sıxışdırılması kimi məlum hadisələr, yəqin ki, ədəbiyyatın (və millətin) yaddaşından heç zaman silinməyəcəkdir.

Azərbaycan ədəbiyyatı həmişə olduğu kimi, bu gün də Azərbaycan xalqının milli-ictimai şüuru olmaq iddiasındadır. Lakin iddia ilə imkanların heç də həmişə üst-üstə düşdüyünü söyləmək çətindir… Və etiraf etmək lazımdır ki, bu gün ədəbiyyat milli-ictimai şüurun əsas təzahürü olmaq iddiasını çox hallarda bugünkü yaradıcılıq məhsulları ilə deyil özünün uzaq (və yaxın) tarixindən «sitat gətirmək»lə təmin etməyə çalışır. Azərbaycanın milli müstəqilliyi hələ də Səməd Vurğunun keçən əsrin 30-cu illərində qələmə aldığı «Azərbaycan» şeri ilə tərənnüm olunur… Və hələ də «Gülüstan» müəllifinin «Hanı yeni dövrün öz Koroğlusu?.. Qılınc Koroğlusu, söz Koroğlusu!..» sualı, demək olar ki, cavabsız qalmaqdadır…

Əlbəttə, bugünkü Azərbaycan ədəbiyyatında altmış, yetmiş, səksən yaşlarındakı yazıçıların məhsuldarlığı, kifayət qədər güclü ideya-estetik mövqeyi fəxr doğurur, ancaq iyirmi, otuz, hətta qırx yaşlarındakı «gənc qələmlər»in passivliyi ciddi narahatlıq yaradır.

***Nə baş verir?..***

Ədəbi təfəkkür milli-ictimai şüurdakı tarixi mövqeyini nə üçün digər şüur təzahürlərinə bu qədər arxayınçılıqla güzəştə gedir?.. Və bu nə qədər təbiidir?..

Doğrudur, gənclik «öz»ünü yazır, ancaq həmin bu «öz», adətən, o qədər subyektiv, dağınıq və qeyri- konseptualdır ki, ədəbi mətləbsizliyə qədər gedib çıxır. Ən təhlükəlisi isə odur ki, subyektivlik, heç olmasa, üslub belə yaratmır…

Bunun çoxlu səbəbləri barədə danışmaq olar, ancaq, fikrimizcə, biri daha mühümdür: «gənc qələmlər»in şəxsiyyət kimi formalaşmasında, ictimai şüur generatoruna çevrilməsində, söz sahibi olmasında problemlər vardır…

Və elə bil, yazıçı şəxsiyyətini, ədəbi məktəbləri, üslubları formalaşdıran milli varislik, ustad- şagirdlik bağları da qırılmışdır.

***Ədəbiyyat sürətlə qocalır…***

Ədəbiyyat birinci gəlirsə, incəsənət, təbii ki, ikinci gəlməlidir…

Və ədalət naminə deyək ki, bu gün Azərbaycanda incəsənət ədəbiyyatdan daha funksionaldır. Xüsusilə musiqidə, təsviri sənətdə danılması mümkün olmayan böyük uğurlarımız vardır. Ən əhəmiyyətlisi də odur ki, gənclik ön plana keçməkdə, ustadlardan yaxşı dərs alaraq öz üslublarını get- gedə daha inamla təsdiq etməkdə, hətta onlardan qabağa getməkdədirlər. Yalnız muğam sahəsində baş verən intibahı xatırlamaq, elə bilirik ki, kifayətdir.

Lakin təəssüflə qeyd etməliyik ki, Azərbaycan incəsənətinin inkişafındakı bir sıra problemlər məhz ədəbiyyatın durumundan irəli gəlir. Yaxşı mahnı mətnlərinin, dram əsərlərinin, kinossenarilərin, librettoların azlığı, nəticə etibarilə, milli musiqidə, teatrda, kinoda, televiziyada, yəni incəsənətin bu populyar sahələrində ideya- məzmun qıtlığına gətirib çıxarmaqla milli-ictimai şüurun miqyasını məhdudlaşdırır… Və ona görə də yüngül şou proqramlarının geniş yayılması üçün münbit şərait formalaşır ki, bunun da qarşısını inzibati yollarla almaq müasir demokratik təfəkkür etibarilə düzgün olmazdı.

***Din üçüncü gəlir…***

Və milli-ictimai şüur dinsiz, yəni mistik-ruhani təfəkkürsüz çox bəsit görünərdi.

Bu gün Azərbaycanda İslamın dirçəldilməsi, milli mənəvi dəyər kimi qorunub təbliğ olunmasında həm cəmiyyət, həm də dövlət tərəfindən böyük işlər görülür. Nəinki İslam, eləcə də digər mütərəqqi, ümumbəşəri və humanist dini inamlar, dünyagörüşlər müdafiə olunur. Azərbaycan dini tolerantlığın vətənidir.

Lakin burada da problemlər vardır… Əsas problem xaricdən həmişə gözlənilən dağıdıcı, konyuktur müdaxilələrdən ibarətdir ki, onun qarşısını almaqda din xadimləri, dindar ictimaiyyətlə yanaşı, dinə loyal münasibətdə olan ədəbiyyat və incəsənət də böyük məsuliyyət daşımalıdır.

Azərbaycan ədəbiyyatının və incəsənətinin bu sahədə tarixi təcrübəsi var. Və həmin təcrübəyə bizim günlərdə də müraciət edilir. Xalq şairi Zəlimxan Yaqubun «Peyğəmbər» poeması buna misal ola bilər… Ancaq bu cür sənətkarlıqla yazılmış əsərlər olduqca azdır.

Hər hansı din olursa-olsun, elə bir zəngin, tükənməz mənəvi mənbədir ki, ədəbiyyat həmişə ondan qidalanmışdır. Və bu gün də buna böyük ehtiyac duyulmaqdadır. Xüsusilə uzun illər öz dinindən, imanından ayrı düşmüş bir ədəbiyyat üçün…

***Dördüncü yeri elmə verək…***

İstər texniki elmlər, istərsə də təbiət elmləri sahəsində biz, yəqin ki, inkişaf etmiş dünyadan geri qalırıq. İctimai və ya humanitar elmlərə gəldikdə isə burada vəziyyətimiz o qədər də ağır deyil. Xüsusilə müstəqillik illərində dilçilik, ədəbiyyatşünaslıq, mədəniyyətşünaslıq, tarixşünaslıq, hüquqşünaslıq və s. istiqamətlərində bir sıra ciddi uğurlarımız olmuşdur.

Ancaq inamla demək çətindir ki, akademik və ya professional idrakın əldə etdiyi həmin uğurları ümumictimai təfəkkür yetərincə mənimsəyə, milli şüur faktına çevirə bilmişdir… Və bunun məhz belə olduğunu göstərən hallardan biri də ədəbiyyatda, başqa sözlə, yazıçı təfəkküründə, xüsusilə gənc nəsildə elmi- intellektual səviyyənin aşağı olmasıdır.

***Beşinci yer fəlsəfəyə məxsus olsa gərək…***

O fəlsəfəyə ki, yazıçı təfəkkürü və ya ədəbi təfəkkür onsuz susuz dəyirman kimidir.

Azərbaycan ictimai şüurunu fəlsəfədən məhrum saymaq olmaz, lakin onun fəlsəfi mükəmməlliyi barədə də cəsarətlə danışa bilmərik.

Hadisələrin mahiyyətinə varmamaq, populizm, gözə xoş görünənin arxasınca qaçmaq, təqlidçilik, məqsədə asan (yüngül) yolla getmək, uzağı görməmək mərəzi, sonrakı peşimançılıq milli-ictimai şüurda çox hallarda fəlsəfi qeyri-mükəmməllikdən irəli gəlir. Buraya boş mənəm-mənəmliyi və onu müşayiət edən təfəkkür tənbəlliyini də əlavə etsək, görərik ki, vəziyyətimiz o qədər də ürəkaçan deyil.

İstər ədəbiyyatda, istərsə də həyatda gənclik özünü təsdiq etmək istəyir… Ancaq necə, hansı yollarla?. Gözə kül üfürməklə mi?.. Saxta fəlsəfəçiliklə mi?..

***Altıncı yer siyasətindir…***

Nə qədər modelləşdirilsə, müvafiq standartlara, qanunauyğunluqlara tabe elətdirilsə də, siyasət olduqca sərbəst, buxovsuz və cidarsızdır… Ona görə də kimsə «mən siyasətlə məşğulam» deyirsə, demək, hələ heç nə demir. Və fikrimizcə, «ədəbiyyat siyasəti» barədə danışmaq da, əslində, heç nə deməməyə bərabərdir.

Siyasətin bir ictimai şüur (və fəaliyyət) hadisəsi kimi paradoksallığı ondadır ki, hər şeyə haqq qazandırmağa əvvəlcədən hazır olsa da, həmin hazırlığın məntiqli ya məntiqsiz olduğunun fərqinə varmır. «Vəziyyət, yaxud şərait belə tələb etdi və ya edir» - demək kifayətdir.

Halbuki ictimai şüurun heç bir təzahür forması bu qədər məsuliyyətsiz məntiqə əsaslanmır.

Axıra düşsə də, əsas yerlərdən biri də publisistikaya məxsusdur…

Əslində, bu gün bütün dünyada, o cümlədən də Azərbaycanda publisistika həm ədəbiyyatdan, həm incəsənətdən, həm dindən, həm elmdən, həm fəlsəfədən, həm də siyasətdən daha güclüdür. Çünki publisistik şüur proseslərində, ən azı potensial olaraq, hər bir şüurlu insan iştirak edir. Ona görə də ədəbiyyat da, incəsənət də, din də, elm də, fəlsəfə də, siyasət də ilk növbədə kütləvi informasiya vasitələrini əldə saxlamağa, öz inhisarına çevirməyə çalışır. Və publisistikanın özünün də bu cür inhisara düşməyə təbii ehtiyacı var.

Ədəbiyyat yaşamaq istəyirsə milli-ictimai şüurun bütün meydanlarında, o cümlədən publisistika məkanında mümkün qədər möhkəm dayanmalıdır…